# Azərbaycan regionda Avstriyanın etibarlı tərəfdaşıdır

Ölkəmizdə səfərdə olan Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya nazirinin müavini Andreas Rayxhardtın rəhbərlik etdiyi nümayəndə heyəti dünən Milli Məclisdə bir sıra görüşlər keçirib. Öncə Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərovla görüşən nümayəndə heyətinə Azərbaycanın son illərdəki dinamik inkişafı və regionda həyata keçirdiyi beynəlxalq transmilli layihələr barədə ətraflı məlumat verilib.

V.Ələsgərov iki ölkə arasında ayrı-ayrı sahələrdə, o cümlədən iri infrastruktur layihələrinin həyata keçirilməsi sahəsində əməkdaşlıq perspektivləri və imkanları barədə danışıb. O, qonaqlara "Ələt azad iqtisadi zonası haqqında" qanun layihəsi barədə də geniş məlumat verib.

Azərbaycanı regionda Avstriyanın etibarlı və əsas tərəfdaşı adlandıran nazir müavini ölkəsinin bu münasibətləri daha da genişləndirməkdə maraqlı olduğunu deyərək Vyanada növbəti Avstriya-Azərbaycan biznes-forumunun keçiriləcəyini söyləyib. Məqsəd hər iki ölkə arasında qarşılıqlı maraq doğuran, iqtisadi, mədəniyyət, perspektivli sahələri birgə araşdırmaq və müzakirə etməkdir.

Sonda əməkdaşlığın möhkəmləndirilməsinə dair bir sıra məsələlər ətrafında müzakirələr aparılıb.

* * *

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli ilə Avstriyanın nümayəndə heyətinin görüşündə isə əsas müzakirə mövzusu ölkəmizin turizm imkanları, bu sahədə görülən işlər olub.

Komitə sədri Hadi Rəcəbli Azərbaycanda turizmin inkişafı ilə bağlı danışaraq bildirib ki, keçən il ölkəmizə 2,7 milyon xarici vətəndaş gəlib: "Turistlərin ölkəmizə cəlb edilməsinin əsas məqamları isə sabitlik, təhlükəsizlik, qonaqpərvərlik, müasir infrastruktur, tarixi abidələrimiz, beynəlxalq tədbirlər və beynəlxalq yarışlardır".

Söhbət əsnasında qonaqlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçılıq siyasəti ilə bağlı ətraflı məlumat verilib.

Andreas Rayxhardt müxtəlif sahələrdə əməkdaşlığa maraqlı olduğunu bildirib. Görüşdə ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov ilə keçirilən görüşdə isə Avstriyanın nümayəndə heyətinə Azərbaycanın aqrar sektorunun, xüsusən də kənd təsərrüfatının inkişafı, əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verilib.

Avstriyanın kənd təsərrüfatı sahəsində inkişaf etmiş ölkələrdən biri olduğunu deyən Eldar İbrahimov Azərbaycanda aqrar sektorun son 14 ildəki uğurlu statistikasını səsləndirib. Qeyd edib ki, iqtisadiyyatımız ümumilikdə 3,2 dəfə, qeyri neft iqtisadiyyatı isə 2,8 dəfə, sənaye sahəsində 2,6 dəfə, kənd təsərrüfatında 1,7 dəfə, qeyri-neft ixracında isə 4,1 dəfə artım olub.

Qeyd edilib ki, 14 il ərzində iqtisadi göstəricilərimiz ümumi inkişafımızın uğurlu dinamikasını əyani şəkildə göstərir. İqtisadiyyatın 14 il ərzində 3,2 dəfə artımı isə dünya miqyasında rekord göstəricidir.

Komitə sədri vurğulayıb ki, son zamanlar kənd təsərrüfatının inkişafı dövlət siyasətinin əsas prioritetinə çevrilib. Burada əsas məqsəd idxaldan asılılığı azaltmaq, xarici bazarlara çıxaraq ixrac imkanlarını artırmaqdır.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Səbinə MƏMMƏDOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 22 fevral.- S. 4.